https://www.astna.biz/ext/news/2020/1/subsc/eco-agriculture/az/1198.htm

**“Aqrar Tədarük və Təchizat” ASC-nin fəaliyyəti nə vaxt şəffaf olacaq?**

14.01.2020

Son illər ölkənin neft gəlirlərinin azalması öz növbəsində dövlət vəsaitlərinin xərclənməsində səmərəliliyinin artırılmasını və büdcə vəsaitlərindən qənaətlə istifadəni zəruri edir. Xüsusən də

dövlət satınalmalarında şəffaflığın təmin olunması aktual məsələyə çevrilir. Bu məqsədlə dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasını həyata keçirən, səhmləri dövlətə məxsus “Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyətin fəaliyyəti ilə bağlı araşdırmalar aparmışıq.

“Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyətləri kənd təsərrüfatı məhsullarının ticarəti, tədarükü, təchizatı sahəsində fəaliyyət göstərir. “Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyəti ölkədə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada təşkili ilə bağlı həyata keçirilən işlərin səmərəliliyini daha da artırmaq və sistemliliyini təmin etmək məqsədilə yaradılmışdır. Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı ilə “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası” təsdiq edilmişdir. Həmin qaydaya uyğun olaraq, Azərbaycanda dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınması çoxlu sayda dövlət orqanlarının təşkilatçılığa cəlb edilməsi ilə həyata keçirilir. Belə ki, dövlət sifarişi ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada təşkil etmək məqsədilə “Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyəti yaradılsa da, təşkilatı işlərə Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və regionlarda fəaliyyət göstərən 60-a yaxın dövlət aqrar inkişaf mərkəzləri də cəlb edilmişdir. Hətta “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”na görə, ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiymətini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müəyyən edir.

Hər ildə dövlət büdcəsində ərzaq məhsullarının alınması üçün böyük həcmdə maliyyə vəsaitləri nəzərdə tutulur. Son 4 il ərzində dövlət hesabına ərzaq məhsullarının alınması üçün ayrılan büdcə vəsaitlərinin məbləği aşağıdakı diaqramda göstərilir.

Diaqram 1. Dövlət büdcəsində ərzaq məhsullarının alınması və təminatı xərci. Milyon manat




Dövlət büdcəsində ərzaq məhsullarının alınması və təminatı məqsədilə 2017-ci ildə 343,4 milyon manat, 2018-ci ildə 299, 2 milyon manat, 2019-cu ildə 412,5 milyon manat nəzərdə tutulmuşdur. 2020-ci ildə isə ərzaq məhsullarının alınması və təminatı xərci- 414,0 mln manat təşkil edəcəkdir.

"Aqrar tədarük və təchizat" ASC fəaliyyətində etibarlılıq, səmərəlilik, dayanıqlı inkişaf, düzgünlük, şəffaflıq, keyfiyyət, məsuliyyət, operativlik, innovativlik və ətraf mühitə hörmət kimi prinsipləri əsas prinsipləri kimi qəbul etmişdir. "Aqrar tədarük və təchizat" ASC ilk baxışdan sivil ölkələrdə dövlət satınalmalarında mövcud olan əsas prinsipləri qəbul etsə də, apardığımız araşdırmalar göstərdi ki, cəmiyyənin fəaliyyəti heç də şəffaf deyil. Dövlətə məxsus Səhmdar Cəmiyyət yarandığı vaxtdan bu günə kimi saytında fəaliyyəti, apardığı alqı-satqı barədə hər hansı məlumat yaymayıb. Fəaliyyəti şəffaf olmayan Cəmiyyətin hansı prinsiplərlə işləməsini müəyyən etmək isə müşkül məsələdir.

Onu da qeyd etməliyəm ki, "Aqrar Tədarük və Təchizat" ASC-nin hüquqi varisi olduğu "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti 2018-ci idə həmin ilin ilk yarımilliyinin hesabatını mətbuat vasitəsi ilə açıqlamışdı. Həmin məlumata görə, "ilin ilk altı ayı ərzində dövlət büdcəsindən maliyyələşən 850 müəssisə və təşkilatla satınalma müqaviləsi imzalanıb, həmin müqavilələrə əsasən, müəyyənləşdirilən tələbatlar "tedaruk.az" portalına yerləşdirilib və 173 məhsul növü üzrə 286 istehsalçı və satıcıdan onlayn rejimdə təkliflər qəbul edilib. Nəticədə ilin ilk 6 ayı ərzində bu istehsalçı və satıcılardan 28 min ton, dəyəri 52 milyon manat olan kənd təsərrüfatı və ərzaq məhsulları tədarük olunaraq mərkəzi, yerli icra hakimiyyəti orqanlarına məxsus 1934 təchizetmə nöqtəsinə çatdırılıb. 2018-ci ildə "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC təqdim etdiyi məlumatda qeyd edilir ki, 2018-ci ilin 9 ayının yekunlarına əsasən, Səhmdar Cəmiyyət yerli fermerlərdən ümumi miqdarı 53 min ton, dəyəri 106 milyon manat olan kənd təsərrüfatı məhsulları tədarük edib. Tədarük olunmuş məhsulların 81 milyon manatlıq hissəsi dövlət satınalan təşkilatlarının (uşaq bağçaları, xəstəxanalar, penitensiar sistem, hərbi hissələr və s.)

tələbatına yönəldilib, 25 milyon manatlıq məhsul isə xarici ölkələrə ixrac olunub. Varisi olduğu "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətdən fərqli olaraq "Aqrar Tədarük və Təchizat" ASC indiyə kimi dövlət satınalmaları və digər alqı-satqılarla bağlı statistik rəqəmləri ictimailəşdirməmişdir.

Mətbuatdan əldə olunan məlumata görə, "Aqrar Ticarət və Təchizat" ASC-nin Gəncə Regional İdarəsi Gəncə şəhəri daxil olmaqla Samux, Göygöl, Daşkəsən və Kəlbəcər rayonlarına aid müxtəlif satınalan dövlət qurumlarını kənd təsərrüfatı və ərzaq məhsulları ilə təchiz edir. Region üzrə 92 uşaq bağçası, 20 səhiyyə, güc strukturu müəsisəsi qida məhsulları ilə ayda 2 dəfə olmaqla təchiz edilir. Ümumilikdə 125 adda 250 ton məhsulun təchizatı təşkil olunur. Əlbəttə, ayda 2 dəfə ərzaq məhsulları daşımaqla uşaq baxçalarını, xəstəxanaları təzə meyvə, giləmeyvə və tərəvəz məhsulları ilə davamlı təmin etmək mümkün deyil.

Yeni il ərəfəsində Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar Ticarət və Təchizat" ASC-nin Bakı şəhərində təşkil etdiyi "Kənddən Şəhərə" satış yarmarkalardakı qiymətləri nəzərdən keçirdik. Yarmarkalardakı kənd təsərrüfatı məhsullarının qiymətlərini Bakı bazarlarındakı qiymətlərlə müqayisə apardıqda, bu sahədə vəziyyətin heç də ürəkaçan olmadığı ortaya çıxdı. Paradoks olsa da, Bakı şəhər bazarlarında Cəmiyyətin təşkil etdiyi yarmarkalarla müqayisədə eyni keyfiyyətli kənd təsərrüfatı məhsulları müştərilərə daha ucuz qiymətə təklif edilirdi. Təzə bazarda bir kiloqram mal əti müştərilərə 9-10 manata, Nəsimi və Yasamal yarmarkalarında isə mal ətinin 1 kiloqramı 9-11 manat arasında təklif olunurdu. Təzə bazarda yumurtanın qiyməti 13 qəpik, yarmarkalarda isə yumurtanın qiyməti 13-15 qəpik arasında dəyişirdi. Nəsimi bazarında bir kiloqram toyuq əti 4-6 manat, Nəsimi və Yasamal yarmarkalarında toyuq ətinin qiyməti 5 -7 manat arasında təklif olunurdu.

"Aqrar Ticarət və Təchizat" ASC-nin Bakı şəhərində təşkil etdiyi "Kənddən Şəhərə" satış yarmarkalarında istehlakçılara təklif edilən kənd təsərrüfatı məhsullarının keyfiyyəti aşağı, qiymətləri isə yüksəkdir. Yarmarkalara çıxarılan kənd təsərrüfatı məhsulları əsasən bazarlarda satılmayan, büzüşmüş, çürük meyvə-tərəvəz məhsullarıdır. Yarmarkalarda müştərilərə təklif olunan ət və ət məhsullarının keyfiyyəti də bazarlarda təklif edilən məhsullardan fərqlənir. Şəkillər əlavə edilir.

Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının dövlətin yaratdığı yalnız bir Səhmdar Cəmiyyət tərəfindən həyata keçirilməsi çox böyük ehtimalla bu sahədə monopoliyanın yaranmasına gətirib çıxaracaq. Bu halın qarşısının alınması uçun dövlət satınalmalarının təkmilləşdirilməsi, sahənin inhisarsızlaşdırılması, ərzaq malları, kənd təsərrüfatı məhsulları istehsalçılırn və istehlakçıların hüquqlarının müdafiəsi, dövlət satınalmaları sahələrində rəqabət mühitinin yaradılması çox vacibdir. Yaxşı olar ki, hökumət ərzaq və kənd təsərrüfatı məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada deyil, müsabiqə və aşkarlıq əsasında həyata keçirilməsi üçün lazımı şərait yaratsın. Dövlət satınalmaları zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi yalnız aşkarlıq əsasında, müsabiqə yolu ilə podratçıların tenderlərdə bərabər iştirak etməsi şəraitində mümkün olar.

Açıq tender üsulu ilə ərzaq və kənd təsərrüfatı məhsullarının dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasını həyata keçirməklə dövlət öz üzərinə düşən funksiyalarını yerinə yetirməklə yanaşı, özəl strukturların müsabiqələrə çıxış imkanını yaratmaqla, digər bir funksiyanı da yerinə yetirər- bu sahədə sağlam rəqabətli mühit yaratmış olar.

Beləliklə, dövlət vəsaitləri hesabına dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının satın almalarının həyata keçirilməsində özəl sektorun iştirakı üçün bərabər rəqabət mühitinin yaradılması büdcə vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsinə imkan verər.

Vahid Məhərrəmov


Kök
0,50
2019/12/26 13:10


Aqrar Tədarük və Təchizat
Məhsulun adı: Mal-əti
9,00 AZN
Aqrar Tədarük və Təchizat
Məhsulun adı: Qoyun-əti
Qiyməti: 10,00 AZN
Aqrar Tədarük və Təchizat
Məhsulun adı: Hind-quşu
Qiyməti: 13,00 AZN
2019/12/26 13:09


Kənddən
Şəhərə
2019/12/26 13:08